# Azərbaycanın müasir geosiyasi strategiyası

**Dünyada siyasi və iqtisadi güc balanslarının sürətlə dəyişdiyi, beynəlxalq münasibətlər sisteminin yeni mərhələyə qədəm qoyduğu bir dövrdə dövlətlərin xarici siyasət strategiyalarında mühüm dəyişikliklər baş verir. Müasir beynəlxalq sistem qeyri-müəyyənlik, güc rəqabəti və regional münaqişələrlə səciyyələnir. Belə bir şəraitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin XII Qlobal Bakı Forumu çərçivəsində "Euronews" televiziyasına verdiyi müsahibə xüsusi diqqət çəkir. Bu müsahibə Azərbaycanın qlobal və regional proseslərə baxışını, ölkənin yeni geosiyasi konfiqurasiyada tutduğu mövqeyi və diplomatik prioritetlərini daha dərin təhlil etməyə imkan yaradır.**

Prezident İlham Əliyevin müsahibəsində beynəlxalq münasibətlər sisteminin hazırkı vəziyyətinə obyektiv yanaşma özünü göstərir. Dünya siyasəti artıq təkqütblü və ya ikiqütblü düzən çərçivəsində idarə edilmir, yeni güc mərkəzlərinin formalaşması isə beynəlxalq hüququn selektiv şəkildə tətbiqinə səbəb olur. Qlobal güclər arasında artan rəqabət fonunda beynəlxalq hüququn yalnız müəyyən maraqlara xidmət edən alətə çevrilməsi, Azərbaycanın 30 ildən artıq bir müddətdə üzləşdiyi reallıqdır. İşğal dövründə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması buna bariz nümunədir. Prezident Əliyevin müsahibədə vurğuladığı əsas məqam Azərbaycanın yeni geosiyasi düzəndə daha müstəqil, öz maraqlarına əsaslanan və qlobal reallıqlara uyğunlaşdırılmış xarici siyasət həyata keçirməsidir.

Azərbaycanın xarici siyasət doktrinasında beynəlxalq təşkilatlardan çox, ikitərəfli münasibətlərin ön planda olduğu açıq şəkildə ifadə edildi. Bunun başlıca səbəbi qlobal təşkilatların qərar qəbuletmə prosesində effektiv ola bilməməsi və bəzi hallarda böyük güclərin təsiri altında fəaliyyət göstərməsidir. Azərbaycan isə daha çevik və praqmatik yanaşma tətbiq edərək, ikitərəfli əlaqələr üzərindən strateji əməkdaşlıqlar qurmağa üstünlük verir. Türkiyə, Pakistan, İsrail, İtaliya, Macarıstan və Mərkəzi Asiya ölkələri ilə inkişaf edən tərəfdaşlıq bu siyasətin nəticəsidir. Xüsusilə, Türkiyə ilə strateji müttəfiqlik Azərbaycanı regional güc mərkəzinə çevirərək, onun təhlükəsizlik və iqtisadi sahələrdə yeni imkanlar əldə etməsinə şərait yaradıb.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan-Ermənistan münasibətlərinə də xüsusi yer ayırdı. Sülh prosesinin ləngiməsinin əsas səbəbi Ermənistanın daxili siyasi dilemmasıdır. Nikol Paşinyan hökuməti Qərbə inteqrasiya etmək və Azərbaycanla barışığa nail olmaq istəsə də, daxildəki radikal qüvvələrin təzyiqi altında cəsarətsiz mövqe sərgiləyir. Azərbaycanın bu məsələdə mövqeyi isə dəyişməz olaraq qalır: beynəlxalq hüquqa əsaslanan, ərazi bütövlüyünü və suverenliyini qoruyan bir sülh sazişi imzalanmalıdır. Eyni zamanda, Ermənistanla münasibətlərin normallaşması region üçün strateji əhəmiyyət kəsb edir, çünki bu, nəqliyyat dəhlizlərinin açılmasına və iqtisadi inteqrasiyanın sürətlənməsinə təkan verə bilər. Lakin burada Qərbin, Rusiyanın və İranın



geosiyasi maraqları nəzərə alınmalıdır.

Azərbaycanın geosiyasi rolunun güclənməsində enerji diplomatiyası da mühüm yer tutur. Prezident İlham Əliyevin müsahibəsində Avropa İttifaqı ilə enerji əməkdaşlığı məsələsi xüsusi qeyd olundu. Son illərdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji oyunçuya çevrilməsi, xüsusilə Rusiya – Ukrayna müharibəsindən sonra daha da aktuallaşıb. Avropanın enerji asılılığını diversifikasiya etmək istəyi Azərbaycanın əhəmiyyətini artırıb, ölkənin Şərqi Avropaya və Balkanlara qaz ixracı isə Xəzər regionunun enerji marşrutlarının mühüm qovşağa çevrilməsinə şərait yaradıb. Prezidentin bu kontekstdə verdiyi mesajlar göstərdi ki, Azərbaycan təkcə enerji ixrac edən ölkə deyil, həm də qlobal enerji bazarlarında strateji aktordur.

"Euronews"a müsahibə Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu yeni mövqeyi açıq şəkildə nümayiş etdirdi. Xarici siyasətdə daha praqmatik və müstəqil xəttə davam etdirilməsi, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsi, enerji diplomatiyasının gücləndirilməsi və ikitərəfli əlaqələrə üstünlük verilməsi bu siyasətin əsas konturlarını formalaşdırır. Prezident İlham Əliyevin strateji baxışı Azərbaycanın siyasi müstəqilliyini qorumaqla yanaşı, qlobal trendlərə uyğun çevik diplomatik manevrlər etməsinə imkan yaradır. Azərbaycanın yeni dünya düzənində güclü aktor kimi mövqeyini qoruyub saxlaması məhz bu strategiyanın uğurlu icrasından asılı olacaq.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2025.- 19 mart (№ 60).- S.6.